***Dövlətimizin başçısı prezidentlik fəaliyyətinin bütün 18 ili ərzində informasiya mübarizəsində daim öndə olub. İstər ölkə daxilində, istərsə də xarici ölkələrə səfərləri çərçivəsində keçirdiyi görüşlərdə Azərbaycanın uğurları, qlobal layihələrin icrasında əldə etdiyi nailiyyətlər, habelə üzləşdiyi haqsızlıqlar, problemlər barədə ətraflı danışıb, dünya ictimaiyyətini məlumatlandırıb. Prezident İlham Əliyevin təkcə Vətən müharibəsi günlərində dünyanın 30-a qədər media qurumuna müsahibəsi bu baxımdan mühüm önəm daşıyıb. Dövlətimizin başçısı savaşdan sonrakı mərhələdə də beynəlxalq ictimaiyyətə İkinci Qarabağ müharibəsində Azərbaycanın haqlı mübarizəsi, Ermənistanın işğalçı siyasəti nəticəsində bölgədə yaranan təhlükəli vəziyyət, həmçinin düşmənin 30 ilə yaxın bir dövrdə tapdaq altında saxladığı ərazilərdə vandal hərəkətləri, bütün bunlar azmış kimi, yeni ərazi iddiaları ilə çıxış etməsi barədə fakt və dəlillərə əsaslanan ətraflı bilgilər çatdırıb.***

# Zəngəzur dəhlizinin işə salınması ilə Avropa və Avrasiya ilə əməkdaşlıqda yeni mərhələ başlayacaq




Şübhəsiz ki, cənab İlham Əliyevin informasiya mübarizəsi müstəvisindəki fəaliyyətinin ən önəmli cəhəti avropalı tərəfdaşlarımızı Azərbaycan həqiqətləri haqqında məlumatlandırmaq, Ermənistanla mövcud münaqişədə haqlı tərəf olduğumuzu sübuta yetirmək olub. Çünki Prezident İlham Əliyevin vurğuladığı kimi, onların Qarabağ barədə bilgiləri əsasən səhv ssenariyə əsaslanan məlumatlar əsasında formalaşıb. Elə 44 günlük şərəfli müharibə zamanı cənab İlham Əliyev Ali Baş Komandan, diplomat, jurnalist kimi öndə idi, ölkəmizə şərəflə xidmət edir, Azərbaycanın haqlı mövqeyini dünyaya bəyan edirdi.

Ölkə rəhbəri bu siyasəti postmüharibə dövründə də həyata keçirməkdə davam edir. Dövlətimizin başçısının Brüsseldə işgüzar səfərdə olarkən İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsi də bunun parlaq ifadəsidir. Prezident İlham Əliyev bu müsahibəsi ilə səfər çərçivəsində keçirdiyi görüşlərin mahiyyəti barədə adıçəkilən nəşrin vasitəsilə dost ölkənin ictimaiyyətində aydın təsəvvür yaradır.

Bu fikirləri Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rəşad Mahmudov söyləyib.

Rəşad Mahmudov daha sonra deyib: "Cənab İlham Əliyev "İl Sole 24 Ore"nin müxbirinin sualları əsasında bir daha Qarabağ məsələsinə ədalətli yanaşma ilə aydınlıq gətirib. Bu zaman Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti cənab Şarl Mişellə görüşünün təəssüratlarını bölüşüb və Avropa Komissiyasının, şəxsən bu qurumun rəhbərinin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına yönələn səylərini yüksək dəyərləndirib. Eyni zamanda, Aİ, Azərbaycan və Ermənistan rəhbərlərinin dörd saatdan atıq çəkən üçtərəfli görüşünün səmərəliliyini diqqətə çatdırıb. Dövlətimizin başçısı, əlbəttə, bu görüşlə İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlara Azərbaycanın baxış və mövqeyini dünyaya, eləcə də Ermənistana bir daha çatdırmaq fürsəti yarandığını və bu əlverişli imkandan istifadə etdiyini bildirib. Azərbaycan Prezidenti bununla bağlı deyib: "Əlbəttə, biz postmüharibə vəziyyətinin praktiki elementlərini, xüsusilə də kommunikasiyaların açılmasını müzakirə etdik. Bu, ötən ilin noyabrında Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli Bəyanatın mühüm hissəsidir. Lakin çox vacib Bəyanatın bu hissəsinin icrası olduqca ləng gedir. Beləliklə, dünən Ermənistan tərəfindən dərhal həyata keçiriləcək fəaliyyətə dair mühüm qərarlar qəbul edildi ki, dəmir yolu layihəsinin praktiki reallaşdırılmasına start verilsin. Bizə gəldikdə, artıq işlərə başlamışıq və azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır. Biz, əlbəttə, ümid edirik ki, o vaxta qədər Ermənistan özünün ev tapşırığını yerinə yetirəcək…".

Dölətimizin başçısının bu fikirləri Azərbaycanın hər zaman olduğu kimi, postmüharibə dövründə də sözünə sadiq qaldığını, verdiyi vədləri əməli işlərlə sübut ediyini göstərir. Bax, elə bunun nəticəsidir ki, Azərbaycan dünya ölkələri ilə, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıqda böyük etibar, inam əldə edib. Respublikamız son illərdə reallaşdırdığı qlobal layihələrlə Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayıb, Avrasiyanın nəqliyyat habına çevrilib və bu istiqamətdə bundan sonra da mühüm tədbirlərin gerçəkləşdirilməsi nəzərdə tutulub".

Deputat, həmçinin Zəngəzur dəhlizinin yaxın gələcəkdə işə salınması ilə Avropa və Avrasiya ilə əməkdaşlıqda yeni bir mərhələnin başlayacağını bildirib. Qeyd edib ki, bu dəhliz ilə Azərbaycandan Ermənistana və oradan respublikamızın Naxçıvan bölgəsinə, eləcə də Türkiyə və Avropaya əlverişli alternativ nəqliyyat marşrutu fəaliyyət göstərəcək. Cənab İlham Əliyevin də müsahibədə vurğuladığı kimi, Azərbaycandakı mövcud sabitlik, əmin-amanlıq, etibarlılıq da bu dəhlizin gerçəkləşməsini, imkanların reallığa çevrilməsini şərtləndirir. Bunu Azərbaycanın hər zaman sözü və əməli arasında heç bir təzadın olmaması, heç vaxt heç bir müqaviləni pozmaması kimi amillər də təsdiqləyir. Sadəcə, bu məsələdə Ermənistanın müqavilə ödəliklərini yerinə yetirməsi zəruridir.

Rəşad Mahmudov fikirlərini belə yekunlaşdırıb: "Prezident İlham Əliyev müsahibədə Ermənistanla da münasibətlərin normallaşacağına ümid etdiyini, bu qənaətin isə Brüssel səfərində baş nazir Paşinyan və Prezident Mişellə apardığı müzakirənin uğurlu nəticələrindən irəli gəldiyini vurğulayıb. Dövlətimizin başçısı əlavə edib ki, sözügedən dəhliz layihəsi reallığa çevrilərsə, o zaman Ermənistan da regional nəqliyyat şəbəkəsinin üzvü olmaq imkanı qazanacaq. Hazırda isə bu ölkə çıxılmaz vəziyyətdədir. Onun Rusiya və İranla, Azərbaycan isə ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu əlaqəsi yoxdur... Ümumiyyətlə burada uduzan tərəf yoxdur. Yəqin ki, Ermənistan da cənab İlham Əliyevin vurğuladığı kimi, bu qızıl fürsəti dərindən anlayıb qiymətləndirəcək, gələcək planlarda Azərbaycanla münasibətləri qaydaya qoymadan düşdüyü dalandan çıxa bilməyəcəyini başa düşəcək. Hazırda Qafqazda bütün planlarda Azərbaycanın maraqları nəzərə alınır və Ermənistanda bu reallıqla barışmaq məcburiyyətindədir"

***"Xalq qəzeti"***